

Rahil Məmməd

## Mənə sevilməyi öyrət

Saf eşqin necə də mənə həyandır,
Bu qismət, bu tale Tanrı yazandır.
Sevməyə nə var ki, sevmək asandır,
Mənə sevilməyi öyrət, əzizim.

Varım, sərvətim ol könül varınla,
İsit ürəyimi etibarınla.
Təlim et ecazkar baxışlarınla,
Mənə sevilməyi öyrət, əzizim.

Sevgiylə yaşanan ömür-gün xoşdur,
Sevgisiz döyünən ürəklər boşdur.
Dəniz ürəyimi eşqinlə coşdur,
Mənə sevilməyi öyrət, əzizim.

Məhəbbət taledən payımdır elə,
Kaş sevgi günəşi bəxtimə gülə.
Sənə həsədimdir dedirən belə,
Mənə sevilməyi öyrət, əzizim.

Mən eşqin dəlisi sevdalı bəndə,
Nəğməli bir könül bəslərəm təndə.
Gəl sənə sevməyi öyrədim, sən də
Mənə sevilməyi öyrət, əzizim.

Sevdalı bir ürək varım dünyada,
At onu eşq adlı atəşə, oda.
Nəyim var, beləcə sev məni, ya da
Mənə sevilməyi öyrət, əzizim.

Sevgi dərkolunmaz mübhəm bir gecə,
Xəbərsiz, soraqsız gələr gizlicə.
Necə sevdirirsən özünü, necə?
Mənə sevilməyi öyrət, əzizim.

Ömürdən hicranı daşlayaq bu gün,
Sevgi məbədinə daş qoyaq bu gün.
İstəsən, lap elə başlayaq bu gün,
Mənə sevilməyi öyrət, əzizim.

* * *

Donub gözlərimdə təəssüf hissim,
Nə aya bənzərsən, nə gün kimisən...
Başqa cür görmüşdüm əvvəlcə səni,
İndisə adisən, özün kimisən.

O zaman gözümdə bir dənə idin,
İnciydin, gövhərdin, dürdanə idin.
Mənimçün əlçatmaz, əfsanə idin,
İndisə qəlbimdə düyün kimisən.

O həzin duyğular dinə kaş yenə,
O ilğım səadət dönə kaş yenə.
Əlçatmaz olasan mənə kaş yenə,
Heyif, toxunmağa mümkün kimisən!

Hanı günəş kimi yanar gözlərin?
Hanı sevda dolu qaynar gözlərin?
Səhvinin ucundan o xar gözlərin
Sönmüş bir ocaqdır, ölgün kimisən.

Sevgi nəğmələrin o çağda qalıb,
Göz yaşının izi yanaqda qalıb.
Şirin xatirələr uzaqda qalıb,
Sevda bağçasından sürgün kimisən.

Bu eşqi gömməyə sən qazdın qəbir,
İndi də peşmanlıq qəlbini didir.
Qarşında bəs mənim günahım nədir?
Nə üçün sən məndən küskün kimi-
sən?

Hələ ki, duyğular dönməyib selə,
Sən Allah, gəl burda ayrılaq elə!
Görmək istəmirəm mən səni belə,
Heyif, gözlərimdə miskin kimisən!

* * *

O getdiyin tək cığırın üstü nə?
Tikandımı, çayırdımı, görəsən?!
Qoy əlini ürəyimin üstünə,
Qəlbimdimi yarpaq kimi gör əsən?

Atıb getdin, məni aldı od onda,
Ürək yanar həsrətinin odunda.
Belə yanmaz heç ocaqda odun da,
Nolar gəlib yandığımı görəsən?

Özün oldun haqq-salamı kəsən də,
Gəl biryolluq bağrım başın kəs onda.
Bir səs gələ hicran səbrim kəsəndə,
Baxanda göz, sevinə üz, görə, sən.

Oyuncaqmı, oynayırsan sevgimnən?
Dən axtaran göyərçinəm, sevgim dən.
Vallah, bir gün öləcəyəm, sevgimdən
Qəbrim üstə bir gül bitər, görərsən.

* * *

## Qum üstünə yazacağam

Məni sənli xatirələr yandırıb-yaxır,
Yaşadıram həsrət adlı odunu sənin.
Sənin adın ürəyimdən pozulsun deyə
Qum üstünə yazacağam adını sənin.

Ümmanlara yelkən açan gəmidi könlüm,
Bir bu qədər təlatümə dözərmi sinə?
Ürəyimdən atacağam sənli günləri,
Yük olmasın bu gəminin göyərtəsinə.

Dönüşünü istəmirəm, qayıtma daha,
Dönüklüyün ürəyimə kədər gətirdi.
Gəlişinlə görüş yeri necə də miskin,
Ayaqların səni bura hədər gətirdi.

Bağışlanmaq istəyini sinəndə dəfn et,
Xəyanətin bir adı var, hayana yozsan.
Bəhanələr günah yuyan yağış deyil ki,
Onda çimib təmizlənə hər yetən insan.

Mənim qanun yazanlara bir təklifim var,
Gəlin əxlaq kodeksinə bunları yazaq.
Heç bir sevgi alverçisi bağışlanmasın,
Dönüklərə sevilmək də edilsin yasaq.

Dönükləri ürəklərdən sürgün eyləyək,
Bu onlara veriləcək ən ağır cəza.
Unudulmaq bu dünyada ölümdən betər,
Bu xüsusda hökm oxunsun aydın, həm qısa.

* * *

## Sındırma, oğlum!

İnsansan, insana biganə qalma,
Əl tutmaq anında gen durma, oğlum,
Zərif duyğuları daşlara çalma,
Bir qız ürəyi də sındırma, oğlum.

Başının üstündə Tanrı sayəsi,
Qəlbində saf eşqin ruhu, qayəsi.
Hər qız oxunmamış Quran ayəsi,
Bir qız ürəyi də sındırma, oğlum.

Yalan vədlər verib aldatma onu,
Yerindən-yurdundan oynatma onu.
Günahdır, sən Allah, ağlatma onu,
Bir qız ürəyi də sındırma, oğlum.

Ah çəksə, ahından külə dönərsən,
Vaxtsız xəzan vurmuş gülə dönərsən.
Gərəksiz qara qəlp pula dönərsən,
Bir qız ürəyi də sındırma, oğlum.

Ümidi can versə gözündə onun,
Donar məhəbbəti üzündə onun.
Qatili olarsan özün də onun,
Bir qız ürəyi də sındırma, oğlum.

Arzusu çin olmur çox ürəyin də,
Demirəm, mərhəmət yox ürəyində.
Yetər ki, nəfsini boğ ürəyində,
Bir qız ürəyi də sındırma, oğlum.

Namusu müqəddəs, uca tutan kəs,
Özgə namusuna kəc baxa bilməz.
Sınan könülləri almağa tələs,
Bir qız ürəyi də sındırma oğlum.

Sevgisi olmasa yer üzündə, de,
Günəş nur saçarmı gündüzündə, de?
Bir gün öz oğluna sən özün də de:
"Bir qız ürəyi də sındırma, oğlum".